# "TEKNOFEST Azərbaycan" qardaş Türkiyə ilə həmrəyliyin növbəti nümayişidir

*"Ötən həftə ölkəmizdə möhtəşəmliyi və əlamətdarlığı ilə yaddaqalan "TEKNOFEST Azərbaycan" festivalı keçirildi. Respublikamızın hər yerindən ziyarətçilərin festivala axışması böyük marağın göstəricisi idi. Festivalın peşəkarlar tərəfindən hazırlanması və keçirilməsi isə onun əzəmətini daha da artırırdı".*

Bu fikirləri qəzetimizə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib. Deputatın fikrincə, festival çərçivəsində qürurverici məqam milli şahinlərimizin və qardaş ölkənin pilotlarının möhtəşəm hava şousu idi ki, onların çətin manevrlərin öhdəsindən ləyaqətlə gəlmələri izləyiciləri heyrətləndirirdi.

S.Möhbalıyev deyir ki, 2018-ci ildən keçirilməyə başlayan "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalının ildən-ilə nüfuzu artmaqdadır. İndi bu festival beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb: "İlk olaraq Türkiyədən kənarda "TEKNOFEST"in Azərbaycanda təşkil olunması isə iki ölkə arasında olan qardaşlığı, dostluğu, strateji müttəfiqliyi əks etdirməklə yanaşı, həmçinin texnologiya sahəsində əməkdaşlığımızı dərinləşdirəcək".



Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "TEKNOFEST Azərbaycan"da çıxış etmələri festivalın əhəmiyyətini bir daha artırdı, eləcə də ölkələrimizin birliyini və həmrəyliyini bir daha nümayiş etdirdi. Tarix sübut edir ki, Azərbaycan və Türkiyə hər zaman ortaq mövqedən çıxış edib, şad gündə də, dar gündə də bir yerdə olublar. 1918-ci ildə Bakının bolşevik işğalından azad edilməsi zamanı türkiyəli qardaşlarımız köməyimizə yetişdi, şəhərimizi birlikdə azad etdilər, bu yolda şəhidlər verdilər. Bu, qardaşlıq üçün ən gözəl nümunə və örnəkdir. Tarixi zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsində Türkiyə yenə də Azərbaycanın yanında oldu, xalqımıza mənəvi-siyasi dəstəyini əsirgəmədi.

Səttar Möhbalıyev deyir ki, Azərbaycan və Türkiyə münasibətlərinin bu səviyyəyə çatmasında hər iki ölkənin prezidentlərinin xidmətləri danılmazdır. Dövlət başçılarının birliyi və həmrəyliyi, bir-birinə "qardaşım" deyərək müraciət etmələri xalqlarımız üçün də, dünya birliyi üçün də nümunədir. İmzalanan Şuşa Bəyannaməsi isə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edir, müttəfiqliyin geostrateji əhəmiyyətini yüksəldir: "İnanırıq ki, bundan sonra da əlaqələrimiz bütün sahələrdə dinamik olaraq inkişaf edəcək, həmrəyliyimiz əbədi olacaq. Babalarımızın bizə miras qoyduğu bu birlik gələcək nəsillərimiz tərəfindən də davam etdiriləcək", - deyə deputat vurğulayıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 1 iyun.- S.12.